## *ALİ MƏCLİSİN İCLASI*

*19 dekabr 2025-ci il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli hökumət üzvləri hamınızı salamlayıram!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il payız sessiyasının yeddinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 43 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 43 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Hörmətli deputatlar, bildiyiniz kimi, iclasın gündəliyinə 4 məsələ daxildir. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 43 deputatın hamısı lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Hörmətli həmkarlar, gündəliyin birinci məsələsi "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsidir.

Qanun layihəsi 15 dekabr 2025-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 18-ci və 19-cu maddələrinə uyğun olaraq birinci oxunuşda müzakirə edilmiş, onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Layihənin İqtisadi siyasət komitəsində müzakirə edilərək ikinci oxunuş üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınmışdır.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məruzə etməsi üçün söz İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyevə verilir.

**E.Şıxəliyev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və iclas iştirakçıları!

İlk növbədə hər birinizi salamlayıram!

Nəzərinizə çatdırıram ki, "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 15 dekabr 2025-ci il tarixdə birinci oxunuşda qəbul edilərək baxılması üçün komitəyə göndərilmişdir. Qanun layihəsinə heç bir əlavə və düzəliş olmamışdır. Qanun layihəsi ikinci oxunuşda qəbul edilə bilər.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Emin müəllim!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir.

Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

"Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuş üçün əsas kimi qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edən 43 deputatın hamısı lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Hörmətli həmkarlar, qanunun maddə-maddə müzakirəsinə başlayırıq. Söz Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Elvin Əlimərdanova verilir.

**E.Əlimərdanov,** *Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və iclas iştirakçıları!

"Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi maddə-maddə təqdim olunur:

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

**Maddə 1.** Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsinin gəlirləri 483 178 000,0 manat (o cümlədən, muxtar respublikanın vergilər, rüsumlar və digər ödənişləri 271 550 000,0 manat, Azərbaycan Respublikasının dövlət büdcəsindən daxil olan dotasiya (transfertin yuxarı həddi) 211 628 000,0 manat), xərcləri 483 178 000,0 manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 441 623 200,0 manat, yerli gəlirləri 41 554 800,0 manat, mərkəzləşdirilmiş xərcləri 436 628 600,0 manat, yerli xərcləri 46 549 400,0 manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 54 000 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 9 000 000,0 |
| 2.3. | Əlavə dəyər vergisi | 74 000 000,0 |
| 2.4. | Sadələşdirilmiş vergi | 1 000 000,0 |
| 2.5. | Aksizlər | 100 300 000,0 |
| 2.6. | Yol vergisi | 17 500 000,0 |
| 2.6.1. | Xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 17 500 000,0 |
| 2.7. | Mədən vergisi | 1 700 000,0 |
| 2.8. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 350 000,0 |
| 2.9. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 500 000,0 |
| 2.10. | Dövlət rüsumu | 7 400 000,0 |
| 2.11. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 300 000,0 |
| 2.12. | Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan dotasiya (transfertin yuxarı həddi) | 211 628 000,0 |
| 2.13. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 2 731 000,0 |
| 2.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu üzrə daxilolmalar | 1 000 000,0 |
| 2.15. | Sair daxilolmalar | 1 769 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu Naxçıvan Muxtar Respublikasının büdcəsinin aşağıdakı mədaxil mənbəsi hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu üzrə daxilolmalar | 17 500 000,0 |
| 3.1.1. | yol vergisi | 17 500 000,0 |

**Maddə 4.** Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

4.1. bu Qanunun 8-ci maddəsi ilə 2026-cı il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi;

4.2. vergi orqanlarında mərkəzləşdirilmiş qaydada uçotu aparılan vergi ödəyiciləri üzrə vergi daxilolmaları, dövlət əmlakının, torpağın satışından və icarəyə verilməsindən daxilolmalar, sair daxilolmalar, Naxçıvan Muxtar Respublikası büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarının digər gəlirləri.

**Maddə 5.** Bu Qanunun 8-ci maddəsi ilə 2026-cı il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

**Maddə 6.** Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 6.1. | Ümumi dövlət xidmətləri | 74 484 856,0 |
| 6.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 71 177 850,0 |
| 6.1.2. | elm | 3 307 006,0 |
| 6.2. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 86 138 775,0 |
| 6.2.1. | məhkəmə hakimiyyəti | 10 077 228,0 |
| 6.2.2. | hüquq mühafizə | 68 945 824,0 |
| 6.2.3. | prokurorluq | 7 109 198,0 |
| 6.2.4. | hüquqi yardım | 6 525,0 |
| 6.3. | Təhsil | 157 479 439,0 |
| 6.3.1. | məktəbəqədər təhsil | 9 466 783,0 |
| 6.3.2. | ümumi təhsil | 117 505 318,0 |
| 6.3.3. | peşə təhsili | 2 308 754,0 |
| 6.3.4. | əlavə təhsil | 190 294,0 |
| 6.3.5. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 28 008 290,0 |

| | | |
|---|---|---|
| 6.4. | Səhiyyə | 13 077 205,0 |
| 6.4.1. | xəstəxana | 6 562 371,0 |
| 6.4.2. | diaqnostika, profilaktika və qan xidməti ilə bağlı fəaliyyət | 5 493 755,0 |
| 6.4.3. | səhiyyə sahəsində digər xidmətlər | 1 021 079,0 |
| 6.5. | Sosial müdafiə və sosial təminat | 12 705 590,0 |
| 6.5.1. | sosial müdafiə | 1 049 220,0 |
| 6.5.2. | sosial təminat | 10 261 388,0 |
| 6.5.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 1 394 982,0 |
| 6.6. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 26 029 956,0 |
| 6.6.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 19 293 905,0 |
| 6.6.2. | televiziya, radio və nəşriyyat | 5 460 150,0 |
| 6.6.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 852 924,0 |
| 6.6.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 422 977,0 |
| 6.7. | Mənzil və kommunal təsərrüfatı | 16 862 549,0 |
| 6.7.1. | mənzil təsərrüfatı | 852 000,0 |
| 6.7.2. | kommunal təsərrüfatı | 12 195 000,0 |
| 6.7.3. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 3 815 549,0 |
| 6.8. | Kənd təsərrüfatı | 10 776 000,0 |
| 6.8.1. | kənd təsərrüfatı tədbirləri | 8 953 500,0 |
| 6.8.2. | baytarlıq | 1 822 500,0 |
| 6.9. | Ətraf mühitin mühafizəsi | 14 168 630,0 |
| 6.9.1. | bioloji zənginliyin qorunması | 1 253 147,0 |
| 6.9.2. | torpaq və yerquruluşu | 820 000,0 |
| 6.9.3. | hidrometeorologiya tədbirləri | 1 132 310,0 |
| 6.9.4. | meşə təsərrüfatı | 1 532 660,0 |
| 6.9.5. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 8 927 000,0 |
| 6.9.6. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 503 513,0 |
| 6.10. | İqtisadi fəaliyyət | 43 655 000,0 |
| 6.10.1. | nəqliyyat və rabitə | 16 000 000,0 |
| 6.10.2. | tikinti və şəhərsalma | 22 000 000,0 |
| 6.10.3. | geodeziya və faydalı qazıntılar | 600 000,0 |
| 6.10.4. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 5 055 000,0 |
| 6.11. | Əsas bölmələrə aid edilməyən xidmətlər | 27 800 000,0 |
| 6.11.1. | ehtiyat fondları | 7 500 000,0 |
| 6.11.2. | məqsədli büdcə fondları | 18 500 000,0 |
| 6.11.3. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 1 800 000,0 |

**Maddə 7.** Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsinin xərcləri funksional təsnifata uyğun olaraq bölmə, köməkçi bölmə, paraqraf və iqtisadi təsnifata uyğun olaraq bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddə səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 8**. Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə gəlirlər 91 500 000,0 manat, yerli xərclər 46 549 400,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 49 945 200,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 4 994 600,0 manat məbləğində təsdiq edilsin.

(manatla)

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləş-dirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləş-dirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|
| | **Şəhər** | | | | |
| 1. | Naxçıvan | 62 000 000 | 17 499 500 | 44 500 500 | |
| | **Rayonlar** | | | | |
| 2. | Şərur | 6 690 000 | 6 683 200 | 6 800 | |
| 3. | Babək | 10 000 000 | 4 568 200 | 5 431 800 | |
| 4. | Ordubad | 2 400 000 | 4 829 300 | | 2 429 300 |
| 5. | Culfa | 3 300 000 | 4 656 100 | | 1 356 100 |
| 6. | Şahbuz | 3 930 000 | 3 927 100 | 2 900 | |
| 7. | Kəngərli | 2 510 000 | 2 506 800 | 3 200 | |
| 8. | Sədərək | 670 000 | 1 879 200 | | 1 209 200 |
| | **Cəmi:** | **91 500 000** | **46 549 400** | **49 945 200** | **4 994 600** |

**Maddə 9.** Naxçıvan Muxtar Respublikasının büdcəsinin icrası prosesində “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə Naxçıvan Muxtar Respublikasının büdcəsinin daxilolmalarının vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

**Maddə 10.** Bu Qanun 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

**Sədrlik edən.** Sağ olun, Elvin müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin İntizam komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və iclas iştirakçıları!

Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcə layihəsində təhsil sahəsinə 157 milyon 479 min 439 manat vəsaitin ayrılması, ümumi büdcə xərclərinin 32,6 faizinin bu sahəyə yönəldilməsi dövlətin insan kapitalının inkişafını prioritet istiqamət kimi müəyyən etdiyini aydın şəkildə nümayiş etdirir. Təhsil xərclərinin 2025-ci illə müqayisədə 497 min 609 manat və ya 0,3 faiz, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 13 milyon 438 min 605 manat və ya 9,3 faiz artması təhsil sisteminin davamlı inkişafına və keyfiyyət göstəricilərinin yüksəldilməsinə xidmət edən ardıcıl maliyyə siyasətinin göstəricisidir.

2026-cı il büdcə layihəsində təhsil xərclərinin strukturuna nəzər saldıqda, vəsaitlərin əsas hissəsinin - 117 milyon 505 min 318 manatı və ya 74,6 faizinin ümumi təhsilə yönəldilməsi geniş əhatəliliyin təmin edilməsi baxımından müsbət qiymətləndirilməlidir. Bununla yanaşı, məktəbəqədər təhsilə ayrılan vəsaitin 9 milyon 466 min 783 manat və ya 6 faiz, peşə təhsilinə ayrılan vəsaitin isə 2 milyon 308 min 754 manat və ya 1,5 faiz təşkil etməsi, bu sahələrin inkişaf potensialının tam reallaşdırılması bir daha dövlət qayğısının nəticəsidir və gələcək illərdə də büdcə planlaşdırılmasında bu istiqamətlərin gücləndirilməsi diqqətdə saxlanılmalıdır.

Qeyd etmək lazımdır ki, təhsil sahəsinə yönəldilən büdcə vəsaitləri Azərbaycan Respublikası Prezidentinin 5 iyun 2023-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş hədəflərlə tam uzlaşır. Ümumtəhsil müəssisələrində təhsilin keyfiyyətinin artırılması, peşə təhsilinin inkişafı, dövlət qulluğunda insan resurslarının gücləndirilməsi, eləcə də startap və innovativ layihələrin dəstəklənməsi büdcə siyasətinin strateji istiqamətlərini təşkil edir.

Bununla yanaşı, hesab edirik ki, təhsil üzrə büdcə xərclərinin səmərəliliyinin daha da artırılması məqsədilə bir sıra istiqamətlərdə vəsaitlərin optimallaşdırılması və genişləndirilməsi zəruridir. Xüsusilə peşə təhsili sahəsinə ayrılan vəsaitlərin mərhələli şəkildə artırılması məqsədəuyğun hesab olunur. Belə ki, vətəndaş qəbulları zamanı qarşılaşdığımız əsas problemlərdən biri təhsili olmayan vətəndaşların işlə təmin olunması məsələsidir. Düşünürəm ki, bu problemin aradan qaldırılması yollarından biri də məhz peşə təhsilinin inkişafını təmin etməkdən ibarətdir. Çünki bu sahə üzrə müvafiq peşələrin tədrisinin təşkili ayrı-ayrı sahələr üzrə ixtisaslaşmış kadrların formalaşmasına səbəb olur ki, bu da gələcəkdə işlə təmin olunma məsələsini asanlaşdırır. Bu baxımdan yuxarıda da qeyd etdiyim kimi peşə təhsili sahəsinə ayrılan vəsaitlərin növbəti illərdə də artırılmasına ehtiyac vardır.

Sonda vurğulamaq istərdim ki, 2026-cı il üzrə təhsil sahəsinə ayrılan vəsaitlər sosialyönümlü dövlət siyasətinin tərkib hissəsi olmaqla yanaşı, Naxçıvan Muxtar Respublikasında rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasına xidmət edir. Təklif etdiyimiz istiqamət üzrə maliyyə mexanizmlərinin təkmilləşdirilməsi isə bu vəsaitlərin effektivliyini daha da artıracaqdır.

Diqqətiniz üçün təşəkkür edirəm və deputat həmkarlarımı layihənin lehinə səs verməyə çağırıram.

**Sədrlik edən.** Sağ olun, Bəhruz müəllim!

Başqa çıxış etmək istəyən varmı?

Buyurun, Məmməd müəllim!

**M.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim, hörmətli deputatlar və iclas iştirakçıları!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası, regional və beynəlxalq müstəvidə atılan uğurlu addımlar yeni reallıqlar yaratmış və bu reallıqlar növbəti dövrlərdə Azərbaycanın yeni inkişaf mərhələsindəki strateji baxışını şərtləndirmişdir. Qeyd olunan ümumi inkişaf fonunda Naxçıvan Muxtar Respublikası da ölkəmizdə müəyyənləşdirilmiş ümumi inkişaf konsepsiyasından kənarda qalmır. Bu çərçivədə dövlət büdcəsi hökumətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsində əsas idarəetmə alətidir və büdcənin hazırlanması prosesində səmərəlilik və prioritetlərin düzgün müəyyən edilməsi əsas prinsip kimi qəbul olunmuşdur.

Qeyd etmək istəyirəm ki, 2026-cı ilin büdcə layihəsi makroiqtisadi proqnoz göstəriciləri, maliyyə-büdcə intizamının gücləndirilməsi tələbləri və müasir idarəetmə prinsiplərinə uyğun şəkildə hazırlanmışdır. Eyni zamanda muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətləndirilməsini təmin etmək məqsədilə, büdcənin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş dövlət proqramlarının, ərzaq təhlükəsizliyi üzrə tədbirlərin, kənd təsərrüfatının aparıcı sahələrinin daha da inkişaf etdirilməsi, nəqliyyat, kommunal və digər sahələr üzrə infrastruktur layihələrinin, dövlətin adından yaradılmış publik hüquqi şəxslərin dövlət sifarişi ilə həyata keçirəcəkləri iş və xidmətlərin, dövlətin funksiya və vəzifələrinə aid olan digər zəruri xərclərin maliyyələşməsi üçün aidiyyəti üzrə vəsaitlər proqnozlaşdırılmışdır.

Bütün bunlarla yanaşı, bildirmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının əhalisinin 70 faizdən çoxu kənd yerlərində yaşayır və kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğuldur. Həmçinin əhalinin məşğulluğunun daha operativ və qısa müddətdə təmin olunmasında aqrar sektorun inkişafı xüsusi əhəmiyyət kəsb edir. 2026-cı il üçün Naxçıvan Muxtar Respublikası büdcəsinin layihəsində kənd təsərrüfatı bölməsi üzrə büdcə xərclərinin 2,2 faizi və ya 10 milyon 776 min manat həcmində vəsait ayrılması nəzərdə tutulur. Muxtar respublikanın gələcək inkişaf perspektivlərini nəzərə alaraq, xüsusilə əhalinin məşğulluğu baxımından növbəti illər üçün büdcə layihəsində, kənd təsərrüfatı bölməsində idxaldan asılılığın azaldılması və kənd təsərrüfatının aparıcı sahələrinin daha da inkişaf etdirilməsi üçün bu sahəyə ayrılan vəsaitlərin artırılmasını təklif edirəm.

Diqqətiniz üçün minnətdaram, həmkarlarımı layihənin lehinə səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sağ olun, Məmməd müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20-ci maddəsinə əsasən qanun layihəsi ikinci oxunuşda qəbul edilir və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Qanun layihəsinin ikinci oxunuşu ilə bağlı səsvermədə iştirak edən 43 deputat lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Etiraz etmirsinizsə, 15 dəqiqəlik fasilə edək və sonra gündəlikdə duran növbəti məsələlərin müzakirəsini davam etdirək.

“Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi yekunlaşmışdır. Hökumət üzvlərinə iclasda iştiraklarına görə təşəkkür edirik. Bildirmək istəyirəm ki, fasilədən sonra iclasda iştirak etməyə bilərsiniz.

Çox sağ olun! Başqa təklifi olan varmı?

Yoxdur.

15 dəqiqə fasilə elan olunur.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli deputatlar, iclasımız davam edir.

Gündəlikdə müzakirə olunan ikinci məsələ üçüncü oxunuşda olan “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə salınıb.

Məsələ ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

Məlumat üçün qeyd edim ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.5-ci maddəsinin tələbinə əsasən ikinci oxunuşda qəbul olunmuş qanun lahiyəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır. Eyni zamanda Daxili Nizamnamənin 20.6-cı maddəsinin tələbinə əsasən iş başa çatdıqdan sonra komitə üçüncü oxunuşa hazırlanmış qanun layihəsini Ali Məclisin sədrinə göndərir.

Qanun lahiyəsinin üçüncü oxunuşa hazırlanması ilə bağlı deputatlar tərəfindən layihəyə hər hansı irad bildirilməmiş və təklif irəli sürülməmişdir, bu səbəbdən layihəyə üçüncü oxunuşda baxıla bilər.

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı səsvermədə iştirak edən 43 deputat lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsidir.

Qanun layihəsi Ali Məclisin 15 dekabr 2025-ci il tarixdə keçirilmiş plenar iclasında müzakirə edilmiş, söylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 2 maddəsində dəyişikliyin edilməsi nəzərdə tutulur.

Dəyişikliklərə əsasən hər iki maddəyə yeni sözlər əlavə edilir.

Qanun layihəsinin hazırlanmasında məqsəd “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılması və qanunda qeyd edilən bəzi müddəaların dəqiqləşdirilməsidir.

Təklif edilən dəyişikliklərin birincisi Qanunun 5-ci maddəsindədir. Dəyişikliklə 5-ci maddənin üçüncü və dördüncü abzaslarına “komissiyalarının” sözlərindən əvvəl “komitə və” sözləri əlavə edilir.

Qeyd etməliyəm ki, qanunun hazırda qüvvədə olan redaksiyasında deputat fəaliyyətinin formaları öz əksini tapır və Ali Məclisin deputatı komitə və komissiyaların işində iştirak edir, lakin bu hal qanunda öz əksini tapmamışdır.

Eyni zamanda ikinci dəyişikliklə Ali Məclisin sədrinin və Ali Məclisin komitə və komissiyalarının tapşırıqlarının yerinə yetirilməsi ilə bağlı müddəa qanunda öz əksini tapmamışdır və artıq 4-cü abzasa əlavə edilən dəyişikliklə bu məsələ də öz əksini tapır.

Qeyd edilən dəyişkliklə deputatların komitələrin fəaliyyətindəki iştirakı, tapşırıqlarının yerinə yetirilməsinin hüquqi əsası müəyyənləşdirilir.

Təklif edilən digər dəyişiklik qanunun deputatın toxunulmazlığından bəhs edən 12-ci maddəsi ilə bağlıdır. Dəyişikliklə “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 12-ci maddəsinin üçüncü və beşinci hissələrində “Konstitusiyasına” sözü “Konstitusiyasının 20-ci maddəsinə” sözləri ilə əvəz edilir.

Qanunun qüvvədə olan redaksiyasında Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 20-ci maddəsinə görə deputatın şəxsiyyəti toxunulmazdır.

Məlum olduğu kimi, Konstitusiyanın 20-ci maddəsində Ali Məclis deputatının toxunulmazlığından bəhs edilir. Burada Ali Məclis deputatının şəxsiyyətinin toxunulmazlığı cinayət başında yaxalanma hallarından başqa tutula bilməməsi, məhkəmədə inzibati tənbeh tədbirləri tətbiq edilə bilməməsi, axtarışa məruz qala bilməməsi, eyni zamanda şəxsi müayinə edilməməsi ilə bağlı və cinayət başında yaxalanması ilə bağlı işlənilən prosedur və eyni zamanda onun toxunulmazlığına xitam verilməsi ilə bağlı məsələləri tənzimləyən 20-ci maddəyə artıq birbaşa göndəriş edilir, bu mənada qanunun müddəasında dəqiqləşdirmə aparılır.

Qeyd etməliyəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.6-cı maddəsinə əsasən birinci oxunuşda qəbul edilmiş qanun layihəsinə dair təklifləri və iradları aparıcı komitə öyrənir və ümumiləşdirir.

Qanun layihəsinin ikinci oxunuşa hazırlanması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin 16 dekabr 2025-ci il tarixdə iclası keçirilmiş, müzakirə zamanı deputatlar tərəfindən dəyişiklik təklif edilməmiş, hər hansı irad bildirilməmişdir. Bu səbəbdən Hüquq siyasəti komitəsinin protokol qaydasında qəbul edilmiş qərarı ilə qanun layihəsi ikinci oxunuşa təqdim edilməsi üçün aidiyyəti üzrə göndərilmişdir.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olanlar varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuş üçün əsas kimi qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edən 43 deputatın hamısı lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Daxili Nizamnamənin 20-ci maddəsinə əsasən qanun layihəsi ikinci oxunuşda qəbul edilir və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Qanun layihəsinin ikinci oxunuşu ilə bağlı səsvermədə iştirak edən 43 deputat lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran dördüncü məsələ "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

"Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarına uyğunlaşdırılması məqsədi ilə müvafiq qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanmış, deputatlara paylanılmışdır.

Layihə Hüquq siyasəti komitəsinin 16 dekabr 2025-ci il tarixli iclasında komitə sədrinin, sədr müavininin və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

"Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununda preambula və 11 maddə üzrə dəyişikliklərin edilməsi nəzərdə tutulur. Layihəyə əsasən "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 12-ci maddəsi və keçid müddəası istisna olmaqla qanunun bütün maddələrinə dəyişiklik edilir. Layihə ilə qanunun müxtəlif maddələrinə yeni söz və cümlələr daxil edilir və çıxılır, bir çox maddə yeni redaksiyada verilir və qanuna yeni anlayışlar daxil edilir.

Layihəyə əsasən Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının təşkilati hüquqi forması dəqiqləşdirilir, kollegiyanın orqanlarına yeni komissiyalar daxil edilir, Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədrinin 2 dəfədən çox seçilə bilməməsi ilə bağlı məhdudiyyət aradan qaldırılır, Vəkillərin İxtisas Komissiyasının say tərkibi dəyişdirilir, vəkillərin intizam məsuliyyətinə cəlb edilməsi ilə bağlı müddəalar yenilənir.

Qanun layihəsinin hazırlanmasında məqsəd "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunlaşdırılması və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının fəaliyyətinin təmin edilməsidir.

"Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 16 dekabr 2025-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsində geniş müzakirə edilmişdir. Komitə iclasında rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və rəy yekdilliklə qəbul edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi "Vəkillər və Vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunun müddəalarına uyğunlaşdırılmanın təmin edilməsi məqsədi ilə hazırlanmışdır.

"Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmış, komitənin 16 dekabr 2025-ci il tarixdə keçirilən iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə geniş müzakirə edilmişdir. Qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

İndi isə çıxış üçün söz Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyasının sədri Vüsal Həsənova verilir.

**V.Həsənov,** *Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim, hörmətli deputatlar və iclas iştirakçıları!

Bildiyimiz kimi, artıq "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa mütərəqqi dəyişikliklər ölkə başçısı cənab İlham Əliyev tərəfindən təsdiq edilmişdir. "Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa ediləcək dəyişikliklərin əhəmiyyəti haqqında danışmaq istəyirəm. Belə ki, ölkəmizdə gedən inkişaf vəkillərin peşə fəaliyyətini daha da təkmilləşdirməklə müasir hüquq islahatlarının tələblərinə cavab verən hüquqi müstəvidə vəkilliyin rolunu gücləndirmək məqsədilə "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa bir sıra mühüm dəyişikliklərin qəbul olunması zərurəti yaranmışdır. Bu dəyişikliklər Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının inkişafı və fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb etməkdədir.

Vəkillik fəaliyyətinin həyata keçirilməsinin ümumi qaydalarına dair müddəalarda dəqiqləşmələrin aparılması, Vəkillər Kollegiyasının orqanlarının dairəsinə Vəkillərin İntizam Komissiyası və Vəkillərin İxtisas Komissiyasının əlavə olunmaqla onların hüquq və vəzifələrinin müəyyən edilməsi, Vəkillər Kollegiyası Ümumi Yığıncağının müstəsna səlahiyyət dairəsinin, Vəkillər Kollegiyası Rəyasət Heyətinin səlahiyyət dairəsinin dəqiqləşdirilməsi, Vəkillərin İxtisas Komisiyyasının dairəsinin artırılması, vəkillər barədə həvəsləndirmə tədbirlərinin, intizam icraatının müddətlərində, yeni növ intizam tənbehlərinin əlavə edilməsi və sair təklifləri uğurlu təkliflər olaraq qəbul edirik.

“Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa ediləcək son dəyişikliklərin təkcə normativ-hüquqi aktın təkmilləşdirilməsi deyil, bütövlükdə muxtar respublikada vəkillik fəaliyyətinə, hüquq sisteminə, habelə hüquqi dövlət quruculuğuna mühüm töhfə olduğunu hesab edirəm.

Təklif olunan dəyişikliklər nəticəsində vəkillik institutu daha çevik, peşəkar və cəmiyyətyönümlü fəaliyyət mexanizminə sahib olacaqdır.

Vətəndaşların hüquqlarının müdafiəsi güclənərək vəkillərin prosessual imkanlarının genişlənməsinə, hüquqi yardımın əlçatanlılığının artırılmasına, vətəndaşların ədalətli məhkəmə araşdırılması hüququnun daha effektiv təmin olunmasına real imkanları daha da artıracaq. Bu isə birbaşa olaraq insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsinə xidmət edəcəkdir.

Hüquq sisteminə ictimai etimadı artıraraq Vəkillər Kollegiyasının idarəetmə mexanizmlərinin təkmilləşdirilməsini, intizam və etik qaydalarının daha dəqiq tənzimlənməsini, vəkillərin peşə etikasını və şəffaflıq prinsiplərini daha da möhkəmləndirəcəkdir. Nəticədə cəmiyyətin hüquq sisteminə və xüsusilə vəkillik institutuna inam və etibarı daha da artacaqdır.

Gənc hüquqşünaslar üçün yeni imkanların yaradılmasına, vəkilliyə qəbul şərtlərinin optimallaşdırılmasına, ixtisaslı hüquqşünasların peşəyə daha tez inteqrasiyasına, hüquqi xidmətlər bazarında sağlam rəqabətin formalaşmasına, vəkillik institunun kadr potensialının yenilənməsinə şərait yaradacaqdır. Bu isə uzunmüddətli, perspektivli, daha güclü vəkillik institutunun formalaşmasına səbəb olacaqdır.

Təklif edilən dəyişikliklər muxtar respublikada aparılan məhkəmə hüquq islahatları, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu və insan hüquqlarının qorunması istiqamətindəki dövlət siyasəti ilə tam uzlaşmaqdadır. Bu da göstərir ki, Naxçıvan Muxtar Respublikasında vəkillik institutu hüquq strategiyasının ayrılmaz tərkib hissəsi kimi uğurlu şəkildə inkişaf etməkdədir.

Ümumillikdə, dəyişikliklərin ümumi məqsədi hüquq sistemində vəkillərin rolunu daha da möhkəmləndirmək, vətəndaşların hüquqi müdafiəsini gücləndirmək və hüquqi xidmətlərin keyfiyyətini artırmaqdan ibarətdir.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Vüsal müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olanlar varmı?

Buyurun, Kamil müəllim!

**K.Şükürov,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

Bu gün "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsini müzakirə edirik. Səmimiyyətlə deyim ki, uzun illər hüquq mühafizə orqanlarında işləmiş, eyni zamanda 1 seçki müddətində Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasına rəhbərlik etmiş şəxs və indiki deputat kimi bu qanun lahiyəsinin müzakirəyə çıxarılması mənim böyük məmnuniyyət hissi ilə marağıma səbəb olmuşdur. Qanun layihəsi 16 dekabr 2025-ci il tarixdə Ali Məclisin Hüquq siyasəti komitəsinin iclasında müzakirə edilərkən müzakirədə aktiv iştirak etməyə çalışdım. Bu gün isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin plenar iclasında müzakirədə iştirak edərək fikirlərimi bildirəcəm.

Bildiyimiz kimi, "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu 8 yanvar 2008-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən qəbul edilmişdir.

Qanunun qəbulundan keçən müddət ərzində ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında çox böyük əhəmiyyətli siyasi, sosial, iqtisadi, idarəetmə islahatları keçirilmiş və hazırda da davam etdirilir. Buna görə də hesab edirəm ki, "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi günün tələbidir.

"Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsində edilməsi nəzərdə tutulan əlavə və dəyişikliklərlə yaxından tanış olmuşam. Qanun layihəsində nəzərdə tutulmuş müəyyən normalarla əlaqədar mülahizəm əsasında fikrimi bildirirəm.

Qanunun 3-cü maddəsinin III bəndinin 2-ci hissəsində deyilir: "Vəkillər Kollegiyasının Rəyasət Heyəti Vəkil reyestrinin aparılmasını təmin edir." Bu norma qanunun hazırda qüvvədə olan redaksiyasında, eləcə də dəyişikliklər nəzərdə tutulmuş yeni redaksiyasında da eyni ilə təsbit edilmişdir. Məlumat üçün bildirim ki, vəkil reyestri Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvlərinin vahid qeydiyyatıdır. Ona görə də düşünürəm ki, bu qeydiyyatın aparılması vahid olaraq Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət heyətinin səlahiyyətində olmaqla, əlavə olaraq Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasında da aparılması məqsədəmüvafiq deyil. Ona görə də mən təklif edirəm ki, qanunun 3-cü maddəsinin III hissəsindəki "vəkil reyestrinin aparılmasını təmin edir" cümləsində ifadə edilmiş normanı "vəkil reyestrinin aparılmasında iştirak edir" cümləsi ilə əvəz etsək daha dolğun və məqsədəmüvafiq olar.

"Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə təklif edilən əlavə və dəyişiklikləri bəyənərək qəbul edilməsinə tərəfdar olduğumu bildirir, deputat həmkarlarımdan da layihənin lehinə səs verməl期rini xahiş edirəm.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Kamil müəllim!

Deputatlardan əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir və onun üzərində iş davam etdirilir.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

"Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda səsverməsində iştirak edən 43 deputatın hamısı lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli deputatlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclası öz işini başa çatdırdı. Növbəti iclasımız dekabr ayının 24-də olacaq.

Sağ olun!